## HƏYAT VƏ FƏALİYYƏTİNİN ƏSAS TARİXLƏRİ

***Azərbaycan dilçisi, türkoloq-alim, filologiya elmləri doktoru, akademik Tofiq İsmayıl oğlu Hacıyev 1 may 1936-cı ildə Cəbrayıl rayonunun Soltanlı kəndində anadan olmuşdur.***

| | |
|---|---|
| **1953** | Azərbaycan Dövlət Universitetinin (indi Bakı Dövlət Universiteti) Filologiya fakültəsinə daxil olub. |
| **1958** | Filologiya fakültəsini fərqlənmə diplomu ilə bitirmiş və aspiranturada saxlanmışdır. |
| **1958-1961** | Azərbaycan Dövlət Universitetinin aspiranturasında oxumuşdur. |
| **1962-ci ildə** | “Azərbaycan dilinin Cəbrayıl şivəsi” mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. |
| **1962-1967** | Əmək fəaliyyətinə Azərbaycan Pedaqoji Dillər İnstitutunda başlayan Tofiq Hacıyev burada Azərbaycan dili və ədəbiyyatı kafedrasında müəllim, baş müəllim və dosent vəzifələrində çalışmışdır. |
| **1968** | Pedaqoji fəaliyyətini Azərbaycan Dövlət Universitetində davam etdirmişdir. |
| **1969** | “XX əsrin əvvəllərində Azərbaycan ədəbi dili” mövzusunda doktorluq dissertasiyasını müvəffəqiyyətlə müdafiə etmişdir. |
| **1970** | ADU-da Azərbaycan dilçiliyi kafedrasının dosenti işləyib. |
| **1971** | Professor elmi adına layiq görülüb. |
| **1970-1984** | Türkologiya kafedrasının professoru kimi fəaliyyətini davam etdirib. |
| **1975** | Klassiklərimizin dili-üslubu ilə bağlı “Satira dili” kitabı çapdan çıxıb. |
| **1976** | “Azərbaycan ədəbi dili tarixi” kitabı çap olunub. |
| **1977** | “XX əsrin əvvəllərində Azərbaycan ədəbi dili” kitabı nəşr edilib. |
| **1979** | “Yazıçı dili və ideya-bədii təhlil”; |
| **1980** | “Sabir: qaynaqlar və sələflər”; |
| **1983** | “Molla Nəsrəddinin dili və üslubu”, “Azərbaycan dili tarixi” (Kamil Vəliyevlə şərikli) kitabları çap olunub. |
| **1984-cü ildən** | Ömrünün sonunadək bu kafedranın müdiri vəzifələrində çalışıb və türkologiyanın tədrisində, milli kadrların hazırlanmasında mühüm əməyi olmuşdur. Eyni zamanda 30-a qədər dərslik, monoqrafiya, 500-dən artıq elmi və publisistik məqalə yazmışdır. |
| **1987** | “Azərbaycan ədəbi dili tarixi” kitabı (II hissə) çap edilib. |
| **1993** | Azərbaycan Respublikasının maarif naziri olub. |
| | “Azərbaycan dili” (Zərifə Budaqova ilə şərikli) kitabı nəşr edili.Müstəqillik illərində T.Hacıyev ümumtəhsil məktəbləri üçün proqram və dərsliklərin hazırlanmasında təşkilatçı və müəllif kimi iştirak edir. Onun rəhbərliyi ilə yeniləşdirilmiş “Orta ümumtəhsil |

| | |
|---|---|
| | məktəblərinin V–XI sinifləri üçün türk dili proqramı” çap olunmuşdur. |
| **1994** | “Füzuli: dil sənətkarlığı” kitabı; |
| | İlk dəfə orta məktəblər üçün “Türk dili” IX sinif üçün (şərikli), “Türk dili” X–XI siniflər üçün (şərikli) dərslikləri nəşr edilmişdir. |
| **1999, 9 dekabr** | Azərbaycan xalqının mühüm tarix və mədəniyyət abidələrindən olan “Kitabi-Dədə Qorqud” dastanının tədqiqindəki xidmətlərinə **görə** Əməkdar elm xadimi adına layiq görülmüşdür. |
| | “Şeirimiz, nəsrimiz, ədəbi dilimiz, düşüncələrimiz “ kitabı, |
| | “Dədə Qorqud: dilimiz, düşüncələrimiz” monoqrafiyası çap olunmuşdur. |
| **2003** | Azərbaycan dili: 10-11-ci siniflər üçün dərslik kitabı çap olunub. |
| **2005** | **“**Mikayıl Baştunun "Şan qızı dastanı" və poetikası” kitabı çap olunub. |
| **2007** | Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü seçilib. |
| **2007–2012** | Pedaqoji və elmi fəaliyyətlə yanaşı, respublikamızın ictimai həyatında fəal iştirak etmiş görkəmli alim Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasında filologiya üzrə Ekspert Şurasının; |
| **2008–2014** | Dilçilik üzrə Əlaqələndirmə Şurasının sədri olmuşdur. |
| **2009, 30 oktyabr** | Azərbaycanda təhsilin və elmin inkişafındakı xidmətlərinə görə Müstəqil Azərbaycan Respublikasının ali mükafatlarından olan “Şöhrət” ordeni ilə təltif edilib. |
| **2012** | **“**Azərbaycan ədəbi dilinin tarixi” dərsliyi təkmilləşdirilmiş şəkildə iki cilddə nəşr olunub. |
| **2013** | “Türklər üçün ortaq ünsiyyət dili” kitabı “Təhsil” nəşriyyatı tərəfindən nəşr edilib. |
| **2014** | Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü seçilib. |
| | Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunun direktoru təyin edilib.<br>“Üzeyir Hacıbəylinin bədii dili” kitabı;<br>“Dədə Qorqud kitabı: tariximizin ilk yazılı dərsliyi” monoqrafiyası nəşr olunub. |
| **2015, 27 noyabr** | Görkəmli elm xadimi, mahir pedaqoq və səmimi insan Tofiq Hacıyev vəfat edib və II Fəxri Xiyabanda dəfn olunub. |
| **2016** | Tofiq Hacıyevin 80 illik yubileyi münasibətilə “Elm” nəşriyyatı tərəfindən “Seçilmiş əsərləri”nin I və II cildləri çap edilib. |
| **2017** | **“**Seçilmiş əsərləri” 2 cilddə “Elm” nəşriyyatı tərəfindən çap olunub. |
| **2018** | **“**Cəbrayıl şivəsi” kitabı “Elm” nəşriyyatı tərəfindən təkrar nəşr edilib.<br>“Seçilmiş əsərləri”nin 3-cü cildi çap olunub. |
| **2019** | **“**Seçilmiş əsərləri”nin 4-cü cildi çap olunub. |